Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2025-ci il
“ 21 ” may tarixli
163 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

# Təhlükə potensiallı obyektlərin vahid dövlət reyestrinin aparılması QAYDASI

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda “Texniki təhlükəsizlik haqqında” Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinin 3-cü hissəsinə əsasən hazırlanmışdır və Azərbaycan Respublikasının ərazisində fəaliyyətdə olan təhlükə potensiallı obyektlərin vahid dövlət reyestrində qeydiyyatdan keçirilməsi qaydasını və vahid dövlət reyestrinin aparılması zamanı yaranan münasibətləri tənzimləyir.

1.2. Bu Qaydanın müddəalarına mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasının ərazisində təhlükə potensiallı obyektləri (bundan sonra – obyektlər) istismar edən hüquqi şəxs, xarici hüquqi şəxsin filialı, nümayəndəliyi habelə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər (bundan sonra – şəxslər) və dövlət orqanları (qurumları) tərəfindən əməl olunmalıdır.

1.3. Obyektlərin təhlükə potensiallı obyektlər kateqoriyasına aid edilməsi “Texniki təhlükəsizlik haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

1.4. Obyektlərin vahid dövlət reyestrində qeydiyyatdan keçirilməsi və vahid dövlət reyestrinin aparılması Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyi (bundan sonra – Agentlik) tərəfindən həyata keçirilir.

1.5. Bu Qayda aşağıdakıları müəyyən edir:

1.5.1. vahid dövlət reyestrinə qeydiyyat məqsədilə daxil edilən obyektlərə dair məlumatlar və onların tərkibi;

1.5.2. obyektlərin vahid dövlət reyestrinə daxil edilməsi ilə bağlı müraciətlərə baxılması qaydası.

1.6. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada istismara qəbul edilən obyektlər onların istismarına başlanıldığı tarixdən ən geci 30 (otuz) gün müddətində dövlət reyestrində qeydiyyatdan keçirilməlidir.

1.7. Obyektlərin vahid dövlət reyestrinə daxil edilən məlumatları “Milli arxiv fondu haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq saxlanılır.

1.8. Fərdi məlumatların vahid dövlət reyestrində toplanılması, işlənilməsi və mühafizəsi “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarına uyğun olaraq həyata keçirilir.

## 2. Əsas anlayışlar

2.1. Bu Qaydada istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. **Təhlükə potensiallı obyektlərin vahid dövlət reyestri** (bundan sonra – dövlət reyestri) – vahid metodoloji və texnoloji-proqram prinsiplərinə əsaslanan və Azərbaycan Respublikasının ərazisində istismar edilən obyektlər haqqında məlumatlardan ibarət olan vahid məlumat bazası;

2.1.2. **obyektin dövlət reyestrində qeydiyyatdan keçirilməsi –** fəaliyyət göstərən obyekt haqqında məlumatların dövlət reyestrinin məlumat bazasına daxil edilməsi, obyektə dövlət reyestrində qeydiyyat nömrəsinin verilməsi və həmin obyekti istismar edən şəxslərə, dövlət orqanlarına (qurumlarına) obyektin dövlət reyestrində qeydiyyatdan keçirilməsi barədə çıxarışın verilməsi;

2.1.3. **dövlət reyestrinin aparılması –** fəaliyyət göstərən obyektlər haqqında məlumatların dövlət reyestrinin məlumat bazasında toplanması, məlumat bazasında lazımi dəyişikliklər edilməsi, qeydiyyata alınmış obyektlər və həmin obyektləri istismar edən şəxslər, dövlət orqanları (qurumları) haqqında sistemləşdirilmiş informasiyanın təhlil edilməsi və saxlanılması;

2.1.4. **obyektin dövlət reyestrindən çıxarılması –** bu Qaydanın 6.1-ci bəndində nəzərdə tutulan hallarda obyektin dövlət reyestrindən çıxarılması barədə məlumatların dövlət reyestrinin məlumat bazasına daxil edilməsi;

2.1.5. **dövlət reyestrində dəyişiklik edilməsi** – obyekt haqqında və yaxud həmin obyekti istismar edən şəxslər, dövlət orqanları (qurumları) haqqında məlumatların dəyişməsinə uyğun olaraq dövlət reyestrinin məlumat bazasında dəyişiklik edilməsi;

2.1.6. **təhlükə potensiallı obyektlərin identifikasiyası (eyniləşdirilməsi) –** fəaliyyətdə olan obyektin təhlükə potensiallı obyekt kateqoriyasına aid edilməsi və "Texniki təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq obyektin eyni tipə aid edilməsi.

## 3. Dövlət reyestrinin aparılmasının məqsədi

Dövlət reyestrinin aparılmasında məqsəd tikilən, istismar edilən və ləğv edilən təhlükə potensiallı obyektləri qeydiyyata almaqla yanaşı, onların istismarına dair dövlət orqanlarını (qurumlarını) və bələdiyyələri, hüquqi şəxsləri, xarici hüquqi şəxslərin filial, nümayəndəliklərini və fiziki şəxsləri müvafiq məlumatlarla təmin etməkdən ibarətdir.

## 4. Dövlət reyestrinə daxil edilən məlumatların tərkibi

4.1. Dövlət reyestrinə daxil edilən məlumatların tərkibi aşağıdakılardır:

4.1.1. obyekti istismar edən şəxslər, dövlət orqanları (qurumları) haqqında məlumatlar:

4.1.1.1. hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxsin soyadı, adı, atasının adı, hüquqi şəxsin, xarici hüquqi şəxsin filialının, nümayəndəliyinin, dövlət orqanlarının (qurumlarının) adı;

4.1.1.2. VÖEN-i;

4.1.1.3. əlaqə nömrəsi;

4.1.1.4. hüquqi şəxsin, xarici hüquqi şəxsin filialının, nümayəndəliyinin rəhbəri (rəhbər vəzifəsini icra edən) haqqında məlumatlar (soyadı, adı, atasının adı və telefonu);

4.1.1.5. hüquqi şəxsin təşkilati-hüquqi forması;

4.1.1.6. hüquqi şəxsin mülkiyyət forması;

4.1.1.7. hüquqi (qeydiyyat) ünvanı;

4.1.1.8. şəxslərin, dövlət orqanlarının (qurumlarının) faktiki yerləşmə (ofis) ünvanı;

4.1.1.9. elektron poçt ünvanı və internet səhifəsi;

4.1.1.10. hüquqi şəxsin, xarici hüquqi şəxsin filialının, nümayəndəliyinin dövlət qeydiyyat tarixi;

4.1.1.11. şəxslərin əsas fəaliyyət növü və fəaliyyət kodu;

4.1.1.12. şəxslərin digər fəaliyyət növləri (fəaliyyət kodu);

4.1.1.13. obyektlərin istismarına dair lisenziyası və ya icazəsi barədə məlumat (lisenziyanın və ya icazənin aid olduğu fəaliyyət növü, nömrəsi və tarixi);

4.1.2. obyekt haqqında məlumatlar:

4.1.2.1. adı;

4.1.2.2. obyektin və onun yerləşdiyi torpaq sahəsinin təyinatı;

4.1.2.3. yerləşdiyi ünvan;

4.1.2.4. ərazisi və ərazi ölçüləri;

4.1.2.5. koordinatları;

4.1.2.6. obyektlərin hər biri üzərində müraciət edən subyektin mülkiyyət, istifadə və ya icarə hüququnu təsdiq edən sənədin surəti;

4.1.2.7. əhatə edən istehsal sahəsi, sosial obyektləri və məsafələri (yaxınlığında yerləşən obyektlər);

4.1.2.8. obyektin gücü (məhsuldarlığı);

4.1.2.9. istismara qəbulu haqqında akt (nömrəsi və tarixi);

4.1.2.10. obyektin sığortalanmasına dair şəhadətnamənin nömrəsi və tarixi;

4.1.2.11. obyektdə çalışan işçilərin sayı;

4.1.2.12. texniki təhlükəsizliyə cavabdeh şəxs (şəxslər) barədə məlumat (vəzifəsi, soyadı, adı, sertifikatın nömrəsi, tarixi və telefon nömrəsi);

4.1.2.13. yüklülüyünə dair məlumat;

4.1.3. istismar olunan qurğu və avadanlıqlar haqqında məlumatlar:

4.1.3.1. adı;

4.1.3.2. markası (modeli);

4.1.3.3. pasportun qeydiyyat nömrəsi və tarixi;

4.1.3.4. seriyası, SAP, zavod nömrəsi və ya dövlət nömrə nişanı;

4.1.3.5. istismara verildiyi tarix;

4.1.3.6. son təmir tarixi;

4.1.3.7. texniki göstəriciləri (kq, Mpa, $m^3$ və s.);

4.1.3.8. istehsal olunduğu ölkə;

4.1.3.9. istehsal ili;

4.1.3.10. texniki vəziyyəti (saz-nasaz);

4.1.3.11. sayı;

4.1.3.12. son müayinə tarixi;

4.1.3.13. texniki təhlükəsizliyə dair ekspertiza rəyinin nömrəsi və tarixi;

4.1.3.14. istismar müddəti;

4.1.3.15. istismar müddətinin bitmə tarixi;

4.1.3.16. diaqnostika, aləti yoxlama və ya defektoskopiyadan keçirilmə tarixi və növbəti keçiriləcəyi tarix;

4.1.3.17. uyğunluq sertifikatlarının nömrəsi və tarixi;

4.1.3.18. yüklülüyünə dair məlumat;

4.1.4. obyektin tikintisi üçün torpaq sahəsinin ayrılmasına, tikintisinə və istismarına icazə, həmçinin razılıq verilməsi ilə bağlı icazə (razılıq) verən orqan (qurum) tərəfindən dövlət reyestrinə təqdim edilən məlumatlar:

4.1.4.1. torpaq sahəsinin istifadəsinə dair sənəd;

4.1.4.2. obyektin tikintisinə icazə sənədi;

4.1.4.3. obyektin istismarına icazə sənədi.

4.2. Dövlət sirri təşkil edən məlumatlar dövlət reyestrinə daxil edilmir.

## 5. Obyektlərin dövlət reyestrində qeydiyyatdan keçirilməsi

5.1. Obyektin dövlət reyestrində qeydiyyatdan keçirilməsi üçün obyekti istismar edən şəxslər aşağıdakı sənədlər əlavə olunmaqla, Agentliyə "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 18.1-ci maddəsinə uyğun olaraq ərizə ilə müraciət edirlər:

5.1.1. obyektlər barədə məlumat vərəqi (bu Qaydaya 1 nömrəli əlavə);

5.1.2. obyektlərin istismara qəbul aktının surəti;

5.1.3. obyektlərdə istismar olunan qurğu və avadanlıqların pasportlarının surəti;

5.1.4. texniki təhlükəsizlik üzrə müsbət ekspertiza rəyinin surəti;

5.1.5. istismar müddəti bitmiş qurğu və avadanlıqların növbəti istismara yararlılığı barədə sənədin surəti;

5.1.6. obyektin işçilərinin ixtisaslaşma və texniki təhlükəsizlik tələblərinə uyğunluğu, o cümlədən attestasiyadan keçirilməsi barədə sənədin surəti;

5.1.7. hüquqi şəxslərin dövlət reyestrindən çıxarışın surəti;

5.1.8. hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxsin vergi uçotuna alınmasını təsdiq edən şəhadətnamənin surəti;

5.1.9. bu Qaydanın 4.1.2.6-cı və 4.1.2.10-cu abzaslarında, 4.1.2.13-cü (obyekt yüklü edildikdə) abzasında və 4.1.3.18-ci (qurğu və avadanlıq yüklü edildikdə) abzasında nəzərdə tutulanlarla bağlı təsdiqedici sənədlərin surətləri.

5.2. Dövlət orqanları (qurumları) bu Qaydanın 5.1.1-5.1.6-cı və 5.1.9-cu yarımbəndlərində qeyd edilən sənədləri Agentliyə bu Qaydanın 1.6-cı bəndinin tələbi nəzərə alınmaqla təqdim etməlidir.

5.3. Agentlik tərəfindən müraciətlərə "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 19-cu və 20-ci maddələrinə uyğun olaraq baxılır.-

5.4. Sənədlərin və ya məlumatların Agentlik tərəfindən Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda həmin sənədlər və ya məlumatlar şəxslərdən, dövlət orqanlarından (qurumlarından) tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda, onların təqdim edilməsi şəxslərin, dövlət orqanlarının (qurumlarının) razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya şəxslər, dövlət orqanları (qurumları) tərəfindən təmin edilir. Həmin sənədlər kağız daşıyıcıda və ya elektron sənəd formasında təqdim edilə bilər.

5.5. Qeydiyyatdan keçirilən obyektlərə Agentlik tərəfindən 5 (beş) il müddətinə "Təhlükə potensiallı obyektlərin vahid dövlət reyestrində qeydiyyatdan keçirilməsi barədə çıxarış" verilir (bu Qaydaya 2 nömrəli əlavə).

5.6. Çıxarışın qüvvədə olduğu müddətdə obyekti istismar edən şəxslərə, dövlət orqanlarına (qurumlarına), obyektə, həmçinin istifadə olunan qurğu və avadanlıqlara dair bu Qaydanın 4-cü hissəsində qeyd olunmuş müvafiq məlumatlarda dəyişiklik olduğu tarixdən 30 (otuz) gün müddətində dəyişikliklə bağlı tələb olunan sənədlər dövlət reyestri məlumatlarında düzəliş edilməsi üçün Agentliyə təqdim edilməlidir.

Çıxarışda əks olunan məlumatlarda hər hansı bir dəyişiklik baş verdikdə obyekti istismar edən şəxslərə, dövlət orqanlarına (qurumlarına) onun müraciət etdiyi gündən 7 (yeddi) iş günü müddətində yeni çıxarış təqdim olunur. Yeni çıxarışın qüvvədəolma müddəti əvvəlki çıxarışın qüvvədəolma müddəti ilə məhdudlaşır.

5.7. Agentlik tərəfindən təhlükə potensiallı obyektlərin vahid dövlət reyestrində qeydiyyatdan keçirilməsi barədə çıxarışlar qeydiyyat kitabında qeydə alınır (bu Qaydaya 3 nömrəli əlavə).

5.8. Agentlik təhlükə potensiallı obyektlərin vahid dövlət reyestrində qeydiyyatdan keçirilməsi barədə çıxarışlara dair “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 8.1-ci maddəsində göstərilən məlumatları lisenziyaların və icazələrin vahid reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim edir.

5.9. Obyektlərə verilmiş çıxarışlarla bağlı bu Qayda ilə tənzimlənməyən məsələlər “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun həyata keçirilir.

## 6. Obyektlərin dövlət reyestrində qeydiyyatdan çıxarılması

6.1. Obyektlərin dövlət reyestrində qeydiyyatdan çıxarılması “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 26.1-ci maddəsində nəzərdə tutulan hallarda, həmin obyektlər ləğv edildikdə, istismardan çıxarıldıqda (balansdan silindikdə) və ya yaxud obyektlərdə edilmiş dəyişikliklərlə əlaqədar həmin obyektlərdə təhlükəlilik əlamətləri qalmadıqda həyata keçirilir.

6.2. Bu Qaydanın 6.1-ci bəndində nəzərdə tutulmuş hallarda obyektlərin dövlət reyestrində qeydiyyatdan çıxarılması barədə məlumatlar Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən müəyyən olunmuş tələblərə uyğun sənədləşdirilərək obyekti istismar edən şəxslərin ərizəsi ilə birlikdə, dövlət orqanları (qurumları) tərəfindən isə rəsmi müraciətlə Agentliyə təqdim edilməlidir.

## 7. Təqdim edilən sənəd və məlumatların dövlət reyestrinə daxil edilməsi və kodlaşdırılması

7.1. Obyektlər dövlət reyestrində qeydiyyatdan keçirilərkən obyektdə istifadə olunan hər bir qurğu və avadanlığa qeydiyyat nömrəsi verilir. Qeydiyyat nömrəsi Agentliyin, obyekti istismar edən şəxslərin və dövlət orqanlarının (qurumlarının), eləcə də obyektdə istifadə olunan qurğu və avadanlıqların identifikasiyasıdır (eyniləşdirilməsidir). Qeydiyyat nömrəsi bir-birindən defislə ayrılan, X-XXXXX-XXXX şəklində üç hissədən ibarətdir. Qeydiyyat nömrəsinin birinci hissəsi Agentliyi, ikinci hissəsi obyekti istismar edən şəxsləri və ya dövlət orqanlarını (qurumlarını), üçüncü hissəsi isə obyektdə istifadə olunan qurğu və avadanlıqları identifikasiya edir.

Agentliyi identifikasiya edən birinci hissə latın əlifbasının “A” hərfi ilə işarələnir.-

Obyekti istismar edən şəxsləri və dövlət orqanlarını (qurumlarını) identifikasiya edən ikinci hissə 00001-dən 99999-dək rəqəmlərlə nömrələnir.

Obyektlərdəki qurğu və avadanlıqları identifikasiya edən üçüncü hissə 0001-dən 9999-dək rəqəmlərlə nömrələnir.

7.2. İstismarda olan obyekt barədə məlumatların dəyişməsi nəticəsində dövlət reyestrində dəyişiklik edilərkən həmin şəxslərin, dövlət orqanlarının (qurumlarının) və həmin obyektin identifikatorları dəyişilmir. Şəxslər, dövlət orqanları (qurumları) barədə dəyişilmiş məlumatlar dövlət reyestrinə daxil edilərkən, hüquqi şəxsin yenidən təşkil edilməsi halları istisna olmaqla, bu identifikatorlar dəyişilməz qalmalıdır.

## 8. Keçid müddəalar

8.1. Dövlət reyestri 2027-ci il yanvarın 1-dən yalnız elektron formada aparılmalıdır.

8.2. Bu Qaydanın 8.1-ci bəndində nəzərdə tutulan müddətədək dövlət reyestrinin aparılması kağız daşıyıcıda, həmçinin elektron daşıyıcılarda mətn faylları formasında həyata keçirilir.

**“Təhlükə potensiallı obyektlərin vahid dövlət reyestrinin aparılması Qaydası”na 1 nömrəli əlavə**

**Təhlükə potensiallı obyektlər barədə məlumat vərəqi**

| | |
|---|---|
| Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxsin soyadı, adı, atasının adı, hüquqi şəxsin, xarici hüquqi şəxsin filialının, nümayəndəliyinin, dövlət orqanının (qurumunun) adı və VÖEN-i | |
| Hüquqi şəxsin, xarici hüquqi şəxsin filialının, nümayəndəliyinin rəhbəri haqqında məlumatlar (soyadı, adı, atasının adı və telefon nömrəsi) | |
| Hüquqi şəxsin, xarici hüquqi şəxsin filialının, nümayəndəliyinin rəhbəri vəzifəsini icra edən haqqında məlumatlar (soyadı, adı, atasının adı və telefon nömrəsi) | |
| Hüquqi şəxsin təşkilati-hüquqi və mülkiyyət forması | |
| Hüquqi / qeydiyyat ünvanı | |
| Faktiki yerləşmə (ofis) ünvanı | |
| Elektron poçt ünvanı və internet səhifəsi | |
| Hüquqi şəxsin, xarici hüquqi şəxsin filialının, nümayəndəliyinin dövlət qeydiyyat tarixi | |
| Əlaqə nömrəsi | |
| Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxsin, hüquqi şəxsin, xarici hüquqi şəxsin filialının, nümayəndəliyinin əsas fəaliyyət növü və fəaliyyət kodu | |
| Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxsin, hüquqi şəxsin, xarici hüquqi şəxsin filialının, nümayəndəliyinin digər fəaliyyət növləri (fəaliyyət kodu) | |
| Lisenziya və ya icazə barədə məlumat (lisenziyanın və ya icazənin aid olduğu fəaliyyət növü, nömrəsi və tarixi) | |
| Obyektin adı (istehsal, emal, xidmət və digər sahəsinin (tikilinin) adı) | |
| Obyektin və onun yerləşdiyi torpaq sahəsinin təyinatı | |
| Obyektin yerləşdiyi ünvan | |
| Obyektin ərazisi və ərazi ölçüləri | |

<table>
<tr><td>Obyektin koordinatları</td><td colspan="5"></td></tr>
<tr><td>Əhatə edən istehsal sahəsi, sosial obyektlər və məsafələri (yaxınlığında yerləşən obyektlər)</td><td colspan="5"></td></tr>
<tr><td>Yaxın ərazilərdən keçən müxtəlif təyinatlı kommunikasiyalar (yollar, magistral boru kəmərləri, təyinatları və diametrləri, onlara qədər olan məsafələr və s.)</td><td colspan="5"></td></tr>
<tr><td>Obyektin gücü (məhsuldarlığı) və obyektin istismara qəbulu haqqında (aktın nömrəsi və tarixi)</td><td colspan="3">Gücü</td><td>Aktın nömrəsi</td><td>Tarixi</td></tr>
<tr><td>Obyektin sığortalanmasına dair şəhadətnamənin tarixi və nömrəsi</td><td colspan="3"></td><td colspan="2"></td></tr>
<tr><td>Obyektin yüklülüyünə dair məlumat</td><td colspan="2">Yüklülüyün predmeti</td><td colspan="2">Növü (ipoteka, həbs və s.)</td><td>Yüklülüyün edildiyi tarix</td></tr>
<tr><td>Təhlükə potensiallı obyektdə çalışan işçilərinin sayı</td><td colspan="3">Obyektdəki qurğu və avadanlıqda işləyənlərin sayı</td><td colspan="2">Mühəndis-texniki işçilərin sayı</td></tr>
<tr><td>Texniki təhlükəsizliyə cavabdeh şəxs (şəxslər) barədə məlumat (vəzifəsi, soyadı, adı, sertifikatın nömrəsi və tarixi, telefon nömrəsi)</td><td>Vəzifə</td><td colspan="2">Soyadı, adı və atasının adı</td><td>Sertifikatın nömrəsi və tarixi</td><td>Telefon nömrəsi</td></tr>
</table>

**Quraşdıran təşkilatın adı ____________________________ Texniki xidmət göstərən təşkilatın adı ____________________________**

| **Təhlükə potensiallı obyektlər (qurğu və avadanlıqlar) barədə məlumatlar** | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| sıra N-si | Qurğu və avadanlığın adı | Markası (modeli) | Pasportun qeydiyyat nömrəsi və tarixi | Seriya №, SAP №, Zavod №, Dövlət nömrə nişanı | İstismara verildiyi tarix və son təmir tarixi | Texniki göstəriciləri (kq, Mpa, $m^3$ və s.) | İstehsal olunduğu ölkə və istehsal ili | Texniki vəziyyət (sazna-saz) | Sayı | Son müayinə tarixi | Texniki təhlükəsizliyə dair ekspertiza rəyinin nömrəsi və tarixi | Uyğun-luq sertifikatının nömrəsi və tarixi | Yüklülüyünə dair məlumat | İstismar müddəti və istismar müddətinin bitmə tarixi | Obyektdə texniki yoxlama keçirən müəssisənin adı | Texniki yoxlamanın keçirilmə tarixi və növbəti tarix |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 |
| | | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | | | |

Tarix: Vəzifə: Soyadı, adı, atasının adı: imza:

**“Təhlükə potensiallı obyektlərin vahid dövlət reyestrinin aparılması Qaydası”na 2 nömrəli əlavə**

Azərbaycan Respublikasının Dövlət Gerbinin təsviri
Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin
Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyi
Qurumun poçt indeksi, ünvanı, məlumat almaq üçün telefon nömrəsi, faksın nömrəsi və elektron poçtu
Təhlükə potensiallı obyektlərin vahid dövlət reyestrində qeydiyyatdan keçirilməsi barədə çıxarış

**X-XXXXX-XXXX**

Bu çıxarış “____” _________________ il tarixində____________________________

_____________________________________________________________________
(dövlət orqanının (qurumunun) hüquqi şəxsin, xarici hüquqi şəxsin filialı, nümayəndəliyinin adı, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxsin soyadı, adı, atasının adı, poçt indeksi, ünvanı)

ondan ötrü verilmişdir ki, qeyd olunan dövlət orqanı (qurumu), hüquqi şəxs, xarici hüquqi şəxsin filialı, nümayəndəliyi, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs tərəfindən istismar edilən təhlükə potensiallı obyektlər “Texniki təhlükəsizlik haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təhlükə potensiallı obyektlərin vahid dövlət reyestrində qeydiyyatdan keçirilmişdir.

| Obyektin adı və yerləşmə ünvanı | | | |
|---|---|---|---|
| Sıra N-si | Obyektdə istifadə olunan qurğu və avadanlığın adı | Qeydiyyat nömrəsi | Qeydiyyat tarixi |
| 1. | | | |
| 2. | | | |
| 3. | | | |

Dövlət reyestrinə məlumatları (dəyişiklikləri) “______” _______________ il tarixində daxil etdi.

_________________________________________________________________
(vəzifəsi, imzası, soyadı və adı)

Çıxarış ___________ tarixdən 5 (beş) il müddətinə etibarlıdır.

Yeni çıxarış __________ tarixinədək etibarlıdır.
(**Qeyd**. Bu hissə yeni çıxarış verildikdə doldurulur və yeni çıxarışın qüvvədəolma müddəti əvvəlki çıxarışın qüvvədəolma müddəti ilə məhdudlaşır).

Əvvəlki çıxarışın tarixi____________ nömrəsi__________
(**Qeyd.** Bu hissə yeni çıxarış verildikdə doldurulur).

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin
Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyinin rəisi (və ya onun səlahiyyəti həvalə etdiyi vəzifəli şəxs)

____________________________________
(imzası, soyadı, adı və atasının adı) M.Y.

**“Təhlükə potensiallı obyektlərin vahid dövlət reyestrinin aparılması Qaydası”na 3 nömrəli əlavə**

**Təhlükə potensiallı obyektlərin vahid dövlət reyestrində qeydiyyatdan keçirilməsi barədə çıxarışların**

**QEYDİYYAT KİTABI**

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyi

Başlandı ___________________ Bitdi _______________________

| Qeydin tarixi | Çıxarışın tarixi və nömrəsi | Obyekti istismar edən dövlət orqanının (qurumunun), hüquqi şəxsin, xarici hüquqi şəxsin filialının, nümayəndəliyinin adı, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxsin soyadı, adı, atasının adı | Obyektlərin sayı (qurğu və avadanlıqların sayı) | Çıxarışın müddətinin bitmə tarixi | Əvvəlki çıxarışın nömrəsi və tarixi | Çıxarışın təqdim olunması barədə qeyd |
|---|---|---|---|---|---|---|
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |

________________________